**İCTİMAİ ELMLƏR BÖLMƏSİ**

UOT 336.01/02; 339.7.01

# SAHİBKARLIQ SUBYEKTLƏRİNDƏ MALİYYƏ HESABATLARININ BEYNƏLXALQ STANDARTLARINDAN İSTİFADƏ OLUNMASI İMKANLARI

**Sifariz Mirzəxan oğlu Səbzəliyev**
*iqtisad elmləri doktoru, professor*
*Azərbaycan Dövlət İqtisad Unversiteti*

**Nüşabə Astan qızı Qədimli**
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*
*Mingəçevir Dövlət Universiteti*

**Xülasə**

*Məqalədə beynəlxalq maliyyə uçotunun formalaşdırılmasının əsas prinsipləri, uçot dövrünün əsasları, maliyyə hesabatlarının MHBS-ə uyğun şəkildə təqdim edilməsinin xüsusiyyətləri nəzərdən keçirilmiş, təsərrüfat subyektlərin maliyyə göstəricilərinin təhlili üçün bəzi məlumatların çatışmazlıqları üzə çıxarılmışdır. Müəlliflər hesab edirlər ki, ayrı-ayrı nazirlik və idarələrin tərkibində mühasibat, audit və nəzarət sahəsi üzrə peşəkar təşkilatların yaradılması zəruridir.*

***Açar sözlər:*** *MHBS, İFAC, forum, korporativ idarəetmə, mühasib peşəsi, emitent, konseptual əsaslar, maliyyə menecmenti, iqtisadi təfəkkür*

Pandemiya şəraitində dünya iqtisadiyyatının mürəkkəb vəziyyəti, on minlərlə nəhəng transmilli şirkətləri və nəhəng milli sistemləri əhatə edən, müasir dövrdə müflisləşmə ilə əlaqədar mühasibat uçotunun aparılması və maliyyə hesabatlarının hazırlanması sahəsində yeni problemlər yaratmaqdadır.

Hazırkı şəraitdə müzakirə edilən ən çox yayılan mövzulardan birincisi maliyyə bazarlarının inteqrasiyasının (qloballaşmasının) fəal prosesi hesab olunur. Daha çox mürəkkəb və nəzəri problemlər kimi dünya kapital bazarlarından istifadə yolu ilə müxtəlif şirkətlər barədə maliyyə informasiyalarının kifayət qədər olması diqqəti cəlb edir. Həmin problemin həll olunması yollarından biri şirkət qruplarının və digər sahibkarlıq subyektlərinin maliyyə hesabatlarının rolunun gücləndirilməsi, habelə mühasibat uçotu və hesabatı sahəsində yeni standartların işlənilib hazırlanması hesab olunur. Yeni standartlar bütün hallarda beynəlxalq səviyyədə tanınmalı və dünya praktikasının yeni aspektlərini özündə təcəssüm etdirməlidir. Bu da öz növbəsində investorları etibarlı və müxtəlif istiqamətlərdə informasiyalarla təmin etməyə şərait yaradacaqdır.

Qeyd olunan sahədə praktik olaraq, bütün aparıcı təşkilatlar Maliyyə Hesabatlarının Beynəlxalq Standarları Komitəsi (MHBSK); Mühasiblərin Beynəlxalq Federasiyası(İFAC); Mühasiblərin Avropa Federasiyası (FEE); ABŞ-ın Maliyyə uçotu Standartları üzrı Şurası (FASB); Qiymətli Kağızlar üzrə Beynəlxalq Komissiya (IOSCO) beynəlxalq standartların təkmilləşdirilməsi üzrə özlərinin mövqelərini açıqlamışlar. Belə işlərin təşkilinin konkret mexanizmləri üzrə müxtəlif fikirlər söyləyən həmin təşkilatlar bütün hallarda bir mövqedə yekdildirlər; uçotun vahid standartlarının olması vacibdir, onların tətbiq edilməməsi ilk növbədə informasiyaların saxtalaşdırılmasına, hətta investorların aldadılmasına, bəzi hallarda isə beynəlxalq bazarlarda problemlərin yaranmasına və son nəticədə nəhəng firmaların çökməsinə gətirib çıxarır. [1]

Bütün dünyada maliyyə hesabatlarının formalaşması üçün şirkətlər və digər təsərrüfat subyektləri tərəfindən istifadə olunan mühasibat uçotu prinsiplərini eyniləşdirmək məqsədilə

Avsrtaliyanın, Kanadanın, Fransanın, Almaniyanın, Yaponiyanın, Meksikanın, Hollandiyanın, Böyük Britaniyanın, İrlandiyanın və ABŞ-ın peşəkar mühasibat təşkilatları arasındakı razılığa əsasən 1973-cü ildə Maliyyə hesabatının Beynəlxalq Standartları Komitəsi (MHBSK) yaradıldı. 1983-cü ildən etibarən bütün peşəkar mühasibat təşkilatları Beynəlxalq Mühasiblər Federasiyasının üzvləri – Komitənin üzvü seçildilər. 1 yanvar 2015-ci il tarixinə komitənin tərkibinə 108 ölkənin 145 üzvü daxil edilmişdir. Hazırda MHBSK-nın işinə bır sıra digər təşkilatlar da cəlb edilmişdir. [1]

Maliyyə Hesabatlarının Beynəlxalq Standartları Komitəsi istimai maraqlar nöqteyi- nəzərindən maliyyə hesablarının beynəlxalq standartlarını (MHBS-İAS) işləyib hazırlayır, təkmilləşdirir, dərc etdirir. Bu sənədlərdə müxtəlif milli qaydalar və uçot sistemləri harmonizə edilir. Getdikcə daha çox ölkələr və iqtisadi əməkdaşlıq təşkilatları özlərinin maliyyə hesabatlarının tərtib və təqdim edilməsində Beynəlxalq Standartları tanıyır və onlardan istifadə edir. Beynəlxalq Standartların prinsiplərindən istifadə edildikdə, belə düşünmək olar ki, həmin hesabat etibarlıdır, müxtəlif istifadəçilərin etibarlarını daha tam ödəyir və nəhayət onun əsasında qəbul olunan iqtisadi qərarlar daha az riskə məruz qalır.

Maliyyə Hesabatlarının Beynəlxalq Standartları Komitəsi (MHBSK) hazırda da öz fəaliyyətini davam etdirir və nəticədə bütün dünyada maliyyə hesabatlarının tərtib olunması prosesinin təkmilləşdirilməsi və harmonizasiyası prosesinə ciddi təsir göstərir. Bu proseslərə aşağıdakıları aid etmək olar.

- onların əsasında bir çox ölkələrdə (o cümlədən Azərbaycanda) mühasibat uçotunun milli tələblərinə üstünlük verilir;
- standartlar öz ölkələrinin mühasibat uçotuna xüsusi tələblər irəli sürən beynəlxalq istinad rolunu oynayır;
- onlardan fond birjaları da istifadə edir;
- onlar Avropa Komissiyası kimi orqanlar tərəfindən də tətbiq edilir.
- kapital bazarlarının ehtiyaclarını ödəyən sənədlər hazırlandıqda MHBS komitəsinin prinsiplərinə istinad olunur. [2]

Maliyyə Hesabatlarının Beynəlxalq Standartları Komitəsi (MHBSK), Qiymətli Kağızlar üzrə Beynəlxalq Təşkilatla (İOSCO) razılaşmaqla mühasibat uçotu və hesabatın şəffaflığının və müqayisəliliyinin bütün aspektlərini təmin edən "əsas standartlar" sistemini işləyib hazırlamışdır. Qiymətli Kağızlar üzrə Beynəlxalq Təşkilatla İOSCO-nun Rəyasət heyəti 2000-ci ilin mayında özünün üzvlərinə tövsiyyə etmişdir ki, Transmilli Korporasiyalar özlərinin qiymətli kağızlarını beynəlxalq birjalarda yerləşdirmək və satmaq məqsəilə maliyyə hesablarının beynəlxalq standartlarından istifadə etmələrinə icazə versinlər.

Hazırda mühasiblərin daha bir beynəlxalq birliyi – Beynəlxalq Mühasiblər Federasiyası (İFAC) fəaliyyət göstərir. Bu federasiya 1978-ci ildə təsis olunmuşdur. Federasiyanın başlıca məqsədi mühasibat peşəsini inkişaf etdirməkdən və təkmilləşdirməkdən ibarətdir.

Hazırda Beyhəlxalq Mühasiblər Federasiyası İFAC-ın tərkibinə 100-dən çox ölkənin 150 peşəkar təşkilatı daxildir. Bütövlükdə həmin peşəkar təşkilatların müxtəlif təsərrüfat subyektlərində (sənaye, tikinti, ticarət, xidmət, bank və s. sahələrdə) 2 milyondan çox mühasib çalışır. [3]

Beynəlxalq Mühasiblər Federasiyası müxtəlif bankları və inkişaf agentliklərini birləşdirən mühasibat peşəsinin inkişafı forumunun yaradılması təşəbbüsü ilə çıxış etmişdir. Bununla yanaşı federasiya mühasibat uçotu üzrə standartların və metodik göstərişlərin hazırlanması məsələsi ilə də məşğul olur. Belə standartlar və göstərişlər hökümətlərin, nazirliklərin, vergi ödəyicilərinin və reytinq agentliklərinin tələblərini ödəmək üçün nəzərdə tutulmuşdur. Adı çəkilən forum 2000-ci ildə dövlət sektoru üçün ilk dəfə beynəlxalq standartları dərc etdirmişdir. Bütün cəmiyyətin maraqlarının qorunması üzrə hazırlanan layihə forumun fəaliyyəti çərçivəsində önəmli yer tutur. Bu layihə xüsusi praktika ilə məşğul olan müstəqil peşəkar mühasiblərin hazırlanmasında da öz sözünü demişdir. Hazırda auditor zəmanəti üzrə də beynəlxalq standartlar qəbul edilmişdir. Eyni zamanda, Beynəlxalq

Mühasiblər Federasiyasının nəzdində fəaliyyət göstərən Beynəlxalq Auditor Komitəsi peşəkar mühasiblərin tələblərini də hazırlamışdır.

Mühasibat uçotunun inkişafının beynəlxalq forumu 1999-cu ilin iyun ayında Beynəlxalq Mühasiblər Federasiyasının (İFAC) və Dünya Bankının təşəbbüsü ilə təsis edilmişdir. Onun tərkibinə üzvlər və yaxud cəlahiyətli müşahidəçilər qismində müxtəlif maliyyə institutlarını, beynəlxalq inkişaf agentliklərini, beynəlxalq səviyyədə tanınan peşəkar mühasibləri və nəhəng beynəlxalq auditor firmalarını təcəssüm etdirən çoxsaylı təşkilatlar daxildir. Forumun fəaliyyət məqsədlərinə aşağıdakılar daxildir:

- korporativ idarəetmənin effektiv sistemləri çərçivəsində mühasibat peşəsi xidmətlərindən istifadə edən müxtəlif subyektlərə şəffaf maliyyə hesabatlarının hazırlanmasının əhəmiyyətinin dərk olunmasında hökümətlərə köməklik göstərmək;
- cəmiyyətin mənafeyi baxımından həm dövlət, həm də özəl sektorda mühasibat peşəsi qarşısında duran tələbləri müəyyənləşdirmək;
- inkişaf etməkdə olan ölkələrin ehtiyaclarının nəzərə alınmasında hökümətlərə təzyiq göstərmək;
- inkişaf etməkdə olan ölkələrdə mühasibat uçotu və auditin cəmərəli sistemlərini yaratmaq üçün maddi və texniki resursların məqsədəuyğun şəkildə aparılmasına kömək göstərmək;
- hökümət, peşəkar beynəlxalq maliyyə instutları, tənzimləyici orqanlar, investorlar və qiymətli kağızların emitentləri arasında uçot və audit standartlarının hazırlanması istiqamətində əməkdaşlığa nail olmaq;
- mühasibat peşəsinin inkişafının vahid strategiyasının (konseptual əsaslar) hazırlanmasında fəallıq göstərmək. [4]

Adları qeyd edilən beynəlxalq təşkilatların işi bütün dünya ölkələrində Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının (MHBS) tətbiqinə yönəldilmişdir.

Beynəlxalq Standartlar sözün əsil mənasında mühasibat uçotunun universal dilidir. Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının (MHBS) uçot üzrə normativ aktların hormonizasiyası yolu ilə milli mühasibat sistemləri arasındakı fərqləri azaldır. Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının (MHBS) Azərbaycanda 2018-ci ldən etibarən tam həcmdə tətbiqi həyata keçirilən iqtisadi islahatların tərkib hissələrindən biridir.

Avropa Mühasiblər Assosiasiyası (European Accontinq Association) maliyyə sektoru mütəxəssislərinin peşəkar təşkilatıdır. Həm fiziki şəxslər, həm də təşkilatlar assosasiyanın üzvləri ola bilər. Onun qərargahı Brüsseldədir (Belçika). Assosasiyanın hər il keçirdiyi konqreslərdə mühasibat uçotu, audit və maliyyə sahəsində tanınmış mütəxəssislər vaxtı çatmış problemlərin həlli istiqamətində müzakirələr aparırlar.

Beynəlxalq Mühasiblər Federasiyası (İFAC) özündə dünyanın 113 ölkəsinin 151 təşkilatında 2 milyondan çox peşəkar mühasibi birləşdirən çox böyük təşkilatdır. Federasiyanın başlıca məqsədi, bütün dünya ölkələrinin mühasibləri üçün vahid qaydaların hazırlanmasından ibarətdir. Federasiyanın tabeliyində bir sıra komitələr mövcuddur, məsələn, Maliyyə hesabatlarının Beynəlxalq Standartları üzrə Komitə (İASC), Mühasibat etikası üzrə komitə və s. Eyni zamanda Federasiya ümumdünya mühasiblər konqresinin təşkilatçısıdır. Mühasiblərin ümumdünya konqresi mühasibat uçotu ilə bağlı ən böyük tədbir hesab olunur. Konqres 4 ildə bir dəfə müxtəlif ölkələrdə keçirilir. Bu tədbirdə mühasibat uçotu sahəsində dünyanın tanınmış mütəxəssisləri habelə müəssisə rəhbərləri və maliyyəçilər iştirak edirlər. [5]

Beynəlxalq Peşəkar təşkilatlarla yanaşı uçotun beynəlxalq sistemlərinin formalaşmasında milli təşkilatlar da mühüm yer tutur. Məsələn, Honkonq Mühasiblər Cəmiyyəti (Çin); Fransanın Ekspertlər – Mühasiblər Ordeni; Hesablar üzrə komissarların Milli şirkəti (Fransa); Şotlandiyanın diplomlu Mühasiblər institutu; Rusiyanın peşəkar mühasiblər institutu; Azərbaycanın risk və peşəkar mühasiblər İnstitutu; Azərbaycanın milli mühasiblər assosiasiyası və s.

Honkonq Mühasiblər Cəmiyyəti Honkonqda yeğanə peşəkar təşkilatdır ki, onun mühasibat uçotu sahəsində fəaliyyət göstərmək və bütövlükdə mühasibat fəaliyyətini tənzimləmək istiqamətində lisenziya vermək hüququ var. Hazırda Honkonq mühasiblər cəmiyyəti 19000 üzvü birləşdirir ki, onun 16000-i təşkilatlardan, 3000-i isə xüsusi şəxslərdən ibarətdir. [6]

Azərbaycanın Risk və Peşəkar Mühasiblər institutu 2016-cı ildə respublikamızda Bakı şəhərində təsis edilmişdir. Qeyri-kommersiya təşkilatı sayılan institutun təsisçiləri dedikdə elmi və ictimai təşkilatlar başa düşülür. Adı çəkilən institutun fəaliyyətində və yaradılmasında Respublika Maliyyə Nazirliyinin uçot siyasəti şöbəsinin fəallığı xüsusi olaraq qeyd edilməlidir. Onun tərkibində onlarla peşəkar mühasib və auditor fəaliyyət göstərir. Həmin şəxslər müəssisə və təşkilatların, auditor və konsaltinq xidmətlərinin mühasibat uçotu və audit sahəsində rəhbər və aparıcı mütəxəssisləri təmsil edirlər.

İnstitutun başlıca məqsəd və vəzifələrinə aşağıdakılar aiddir:

- peşə təşkilatlarının fəaliyyətini əlaqələndirmək (mühasibat uçotu, audit, maliyyə menecmenti, iqtisadi təhlil, mühasibat, maliyyə iqtisadi profilli işçilərin ixtisaslarını artırmaq və s. sahələrdə);
- mühasibat uçotu, maliyyə menecmenti sahəsində mütəxəssislərin peşə statusunu gücləndirmək məqsədilə attestasiyaların təşkili və keçirilməsi;
- mühasibat uçotu,iqtisadi təhlil və auditin tənzimlənməsi sahəsində baş verən dəyişikliklərlə bağlı təşkilatın üzvlərini məlumatlandırmaq istiqamətində operativ informasiya sisteminin yaradılması;
- mühasibat uçotu, maliyyə menecmenti, audit və s. sahələrlə əlaqədar işçilərin peşə fəaliyyətinin təkmilləşdirilməsi;
- mühasibat uçotu, maliyyə menecmenti, audit və s. sahələrdə çalışan vicdanlı mütəxəssislər haqqında ictimaiyyət arasında müsbət fikir formalaşdırmaq. Həmin mütəxəssislərin qanunvericilik və icra orqanlarında sosial müdafiələrini təmin etmək;
- maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına, habelə ölkədə həyata keçirilən iqtisadi islahatlara uyğun olaraq, təsərrüfat subyektlərində mühasibat uçotu, audit və iqtisadi təhlil sahəsində yeni forma və metodların tətbiqi;
- mütəxəssislərdə bazar münasibətlərinə uyğun iqtisadi təfəkkürün formalaşdırılması [7];
- peşəkar etika normalarının gözlənilməsi;

Aparılan araşdırmaların yekunu olaraq, belə hesab edirik ki, Risk və Peşəkar mühasiblər İnstitutunun fəaliyyətini gücləndirmək məqsədilə Azərbaycanın müxtəlif regionlarında onların bölmələrini yaratmaq məqsədəuyğun olardı. Ümumən isə, qanunlara və ənənələrə mənsubluğun dərk edilməsi müəyyən rəmzlərlə bağlıdır. Mühasibat və auditorların beynəlxalq cəmiyyətində belə bir rəmz üç fiqurdan ibarət olan gerbdən ibarətdir. Günəş - mühasibat uçotu müəssisənin təsərrüfat fəaliyyətini işıqlandırır; tərəzi balansı simvolikləşdirərək müəssisə vəsaitlərinin və onların yaranma mənbələrinin hesabatlarda bərabərliyini əks etdirir; Bernulli qövsü isə bir dəfə baş verən uçotun, yəni formalaşdırılan uçot sisteminin əbədi mövcudluğunu göstərir. Gerbin devizi bu mənanı kəsb edir: "Elm, etibar (vicdan), müstəqillik". Mühasiblərin gerbinin müəllifi fransız alimi Jan Bamucm Dümarme hesab olunur.

## İstifadə edilmiş ədəbiyyat

1. Maliyyə hesabatlarının Beynəlxalq Standartları. http:/www.maliyye.gov.az /static/141/maliyye-hesabatlarının beynəlxalq standartları. Maliyyə Nazirliyinin çapı

2. Mühasibat uçotunun Beynəlxalq Standartları. http/www.maliyye.gov.az/statik/140 mühasibat uçotunun beynəlxalq standartları. Maliyyə Nazirliyinin çapı

3. Abbasov Q.Ə. Mühasibat uçotu. Bakı: Apostroff, 2019, 528 s.

4. Səbzəliyev S.M. Maliyyə hesabatı. Bakı: ADİU-nin nəş., 2018, 312 s.

5. Səbzəliyev S.M., Quliyev V.M. İdarəetmə uçotu. Bakı: Elm, 2018, 524 s.

6. Səbzəliyev S.M., Abbasov Q.Ə. Xidmət sahələrində mühasibat (maliyyə) uçotu: Dərs vəsaiti. Bakı: Təknur, 2015, 384 s.
7. Auditorların müstəqillik qaydaları (prof. V.Novruzovun rəhbərliyi altında). Bakı: MSV NƏŞR, 2020, 325 s.

**Sabzaliyev S. M.**
*Doctor of Economics, Professor*
*Azerbaijan State University of Economics*

**Gadimli N. A.**
*Doctor of Philosophy in Economics, Associate Professor*
*Mingachevir State University*

**Possibilities of using international financial reporting standards for business entities**

**Abstract**

*The article discusses the main principles in the provisions of international financial accounting, the basics of the accounting cycle, the peculiarities of presenting financial statements in accordance with IFRS, reveals the lack of some data for the analysis of financial indicators of economic entities. The authors believe that it is necessary to organize professional organizations in the field of accounting, audit and control within individual ministries and departments.*
***Keywords:*** *IFRS, IFAC, forum, corporate governance, accounting profession, issuer, conceptual framework, financial management, economic thinking*

**Сабзалиев С. М.**
*доктор экономических наук, профессор*
*Азербайджанский государственный экономический университет*

**Гадимли Н. А.**
*доктор философии по экономике, доцент*
*Мингячевирский государственный университет*

**Возможности использования международных стандартов финансовой отчетности на предпринимательских субъектах**

**Резюме**

*В статье рассмотрены основные принципы формирования международного финансового учета, основы учетного цикла, особенности представления финансовой отчетности в соответствии с МСФО, выявлены нехватки некоторых данных для анализа финансовых показателей хозяйственных субъектов. Авторы считают, что в составе отдельных министерств и ведомств необходимо организовать профессиональные организации в области бухгалтерского учета, аудита и контроля.*
***Ключевые слова:*** *МСФО, İFAC, форм, корпоративная управления, бухгалтерская профессия, эмитент, концептуальные основы, финансовый менеджмент, экономическая мышления*